UOT 327; 930.22
DOI: 10.30546/3006-0346.2024.5.83.019

# TÜRKİYƏ - İRAN MÜNASİBƏTLƏRİNDƏ CƏNUBİ QAFQAZ SİYASƏTİ

**ƏLİ ƏLİYEV**
*AMEA akad. Z.M Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
*"Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorant*
*E-mail: alinizami1917@gmail.com*

Son onilliklərdə həm regional, həm qlobal miqyasda müzakirə olunan əsas mövzulardan biri Cənubi Qafqaz regionunda geostrateji təsir uğrunda aparılan Türkiyə - İran rəqabətidir. Ümumiyyətlə isə artıq uzun müddətdir ki, Cənubi Qafqaz Türkiyə və İranın əməkdaşlıq və rəqabət teatrı olub. İlk növbədə, qeyd etmək lazımdır ki, hər iki ölkə regionda güclü tarixi, mədəni, iqtisadi və siyasi maraqlara və təsirə malikdir. Tarixə nəzər yetirsək, hələ Səfəvi və Osmanlı imperiyaları dövründə davamlı rəqabətin mövcud olması və bunun əsrlərlə davam etməsi Cənubi Qafqazın mədəni, dini və siyasi xəritəsini formalaşdırdığını görərik. Məsələni daha da mürəkkəbləşdirən digər məqam Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının daxil olduğu Cənubi Qafqaz regionu enerji nəqliyyat yollarının kəsişmə nöqtəsində yerləşməklə yanaşı, bir sıra qlobal güclərin maraq dairəsindədir. Cənubi Qafqaz regionunun tarixi əlaqələri və həm Türkiyənin, həm də İranın burada yaşayan etnik millət və qruplarla mədəni bağlarının olmasının hər iki dövlətin regionla bağlı siyasətini formalaşdıran əsas amillərdən biri hesab olunur.

İranın Cənubi Qafqaz regionunda sabitlik və maraq balansını qorumağa yönəlməsi ölkənin şimalında Azərbaycan türklərinin çoxluq təşkil etməsi, ümumiyyətlə, Cənubi Azərbaycan faktoru, Ermənistanla ortaq sərhədləri və əlaqələri, Gürcüstanla münasibətləri kimi səbəblərdən qaynaqlanır. Paralel olaraq isə Türkiyənin özünü türk dövlətlərinin lideri kimi təqdim etməsi və dünyanın aparıcı türk dövlətlərindən biri olan Azərbaycanın regionda da aparıcı mövqedə olması, iki türk dövlətinin “bir millət, iki dövlət” şüarı altında sıx qardaşlıq və əməkdaşlıq bağlarının olması da Türkiyənin regionda bir sıra maraqlarının olmasına əsas verir. Əlbəttə, Türkiyə - İran münasibətləri sadəcə tarixi və geosiyasi kontekstlə məhdudlaşmır. Regionun əsas neft – qaz ölkəsi hesab olunan Azərbaycan öz təbii ehtiyatlarını Avropa bazarına çıxarır və bu istiqamətdə müxtəlif layihələrdə iştirak edir. Azərbaycanın yeni neft strategiyası olan Bakı – Tbilisi – Ceyhan neft boru kəməri, ölkəni əsas qaz ixracatçısı kimi tanıdan Bakı – Tbilisi – Ərzurum qaz boru kəməri, Bakı – Tbilisi – Qars dəmiryolu xətti kimi layihələrdə iştirak etməklə Türkiyə özünü enerji və nəqliyyat mərkəzlərindən birinə çevirmək istəyir. Əlbəttə, İran bu proseslərə laqeyd yanaşmır. Həmin layihələrin regional enerji balansına təsirini, Cənubi Qafqazda bu layihələrdə maraqlı olan ölkələrin regionla bağlı siyasətlərini yaxından izləyir və bununla yanaşı, vəziyyəti öz xeyrinə də dəyişməyə çalışaraq, özünün enerji infrastrukturunu inkişaf etdirməyə və genişləndirməyə çalışır. Hətta təsadüfi deyil ki, Azərbaycan və İran arasında elektroenergetika sahəsində əməkdaşlıq əlaqələri müzakirə edilib, iki ölkə arasında su elektrik stansiyalarının tikilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Türkiyə və İranın Cənubi Qafqaz siyasətinə çox ciddi şəkildə təsir edən faktorlardan biri Qarabağ münaqişəsi və Ermənistan – Azərbaycan arasında uzun müddətdir davam edən gərgin vəziyyətdir. Ən yeni dövrə nəzər yetirsək, 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-a kimi davam edən Vətən Müharibəsi (İkinci Qarabağ müharibəsi) zamanı Türkiyə açıq - aydın Azərbaycana hərbi və diplomatik dəstəyini ifadə etdi və göstərdi. Müharibənin gedişində və müharibə sonrasında xarici mətbuatda ciddi şəkildə müzakirə olunan məsələlərdən biri də Azərbaycan – Türkiyə münasibətləri idi. Çünki artıq müharibədən sonra bölgədə Ankaranın rolu dərinləşdi. 2023-cü il sentyabrın 19-da son hərbi zərbələrlə Azərbaycanın Qarabağın qalan hissəsini geri alması Azərbaycan və Ermənistan arasında sülh razılaşmasının əldə olunması ehtimalını artırır, əlbəttə, bu proses Türkiyənin maraqlarını təmin edir, eyni zamanda Rusiyanın regiondakı rolunu potensial olaraq məhdudlaşdırır. Beləliklə də, “daha az Rusiya, daha çox Türkiyə” dinamikası perspektivi Tehranın Ankaraya qarşı narahatlığını ciddi şəkildə artırır. Müharibənin sonunda – noyabrın 10-da imzalanan Bəyanat İranı xüsusilə narahat edir. Çünki Moskvanın vasitəçiliyi ilə əldə edilmiş atəşkəs çərçivəsində Azərbaycanın Naxçıvan eksklavı və Ermənistanın cənub – şərqindəki Sünik əyaləti vasitəsilə Türkiyəni Azərbaycanla birləşdirən avtomobil və dəmiryolu xəttinin yenidən qurulmasını tələb edən bənd İranı marginallaşdırmaq riski daşıyır. Bundan əlavə, bir çox siyasi şərhçi qeyd edirdi ki, müharibədən sonra regionda qüvvələr nisbətində ciddi dəyişikliklər olacaq, Türkiyə daha güclü amilə çevriləcək. Hətta

Böyük Turan dövlətinin ilk toxumlarının səpildiyini qeyd edənlər də vardı. İran isə bu proseslərin işığında tərəfsizlik siyasəti yürütdüyünü qeyd etsə də, həm Azərbaycanla, həm Ermənistanla balanslı münasibət saxlamağa çalışsa da, əslində Ermənistanla sıx iqtisadi əlaqələrə malik olduğu, hər iki ölkəylə münasibətini tərəzinin fərqli gözlərinə qoyduqda hansının daha ağır gələcəyi gün kimi aydındır.

İranın həyəcanı sadəcə regionla məhdudlaşmır. Onu digər narahat edən məsələ Türkiyənin yaxın müttəfiqi Azərbaycan və İranın əsas rəqiblərindən olan İsrail arasında əlaqələrin dərinləşməsi prosesidir. Çünki İsrail və Azərbaycan arasında siyasi, iqtisadi və hərbi əlaqələr sürətlə inkişaf etməyə davam edir. İkinci Qarabağ müharibəsində də Azərbaycanın qələbəsində İsrail silahları mühüm rol oynadı. 2021-ci ildə Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu belə bir iddia irəli sürdü ki, İsrail öz silahlarını Azərbaycanın İsrailə neft satışının davam etdirilməsi və guya Azərbaycan kəşfiyyatının İranla bağlı məlumatlarının paylaşılması müqabilində Azərbaycana ixrac edir [9]. Bu mənada İran Azərbaycan-İsrail strateji tərəfdaşlığının möhkəmlənməsini Tehranı Cənubi Qafqazda təcrid etmək üçün atılan addım kimi görür və buna görə də bunu öz milli təhlükəsizliyi və maraqlarına təhdid kimi qiymətləndirir. 2022-ci ilin sentyabrında Ermənistan-Azərbaycan sərhədində baş vermiş müvəqqəti toqquşmadan sonra İsrailin keçmiş müdafiə naziri Benni Qantz Azərbaycana səfər edərək, iki ölkə arasındakı tərəfdaşlığı daha da möhkəmləndirib. İran daha sonra Azərbaycanla sərhədində "Xeybər fatehləri" adlı hərbi təlimlər keçirdi ki, bu da həm Azərbaycan, həm də İsrail üçün birbaşa siqnal kimi şərh edilə bilər. Ümumilikdə, İsrail və Azərbaycan arasında artan tərəfdaşlıq Tehran və Bakı arasında gərginliyin artmasına səbəb olub və bu, İranın özünün şimal qonşusuna yönəlmiş təxribatları, o cümlədən Azərbaycanda hökumət əleyhinə silahlı qruplaşmaları dəstəkləməsi ilə birləşib.

Müharibədən sonra bölgədə yenidənqurma məsələləri gündəmə gəldi və yeni nəqliyyat yollarının açılması müzakirə edildi. 2021-ci ildə Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsində Zəngəzur dəhlizinin açılması, Cənubi Qaz Dəhlizinin həyata keçirilməsinin önəminin vurğulanması İranın regional strategiyasına birbaşa təsir etdi [7]. Çünki Rəsmi Tehran "Zəngəzur dəhlizi"-ni özünün "qırmızı xətti" olduğunu deyib [8]. Qeyd etmək lazımdır ki, Rusiya belə dəhlizin açılmasını dəstəkləyib. Deməli, İran qonşu dövlətlərin və regionun geosiyasi və "beynəlxalq səviyyədə tanınmış" sərhədlərinin dəyişikliyinin qəbuledilməzliyi yanaşmasından imtina edərsə, regionda Ermənistan təklənmiş vəziyyətdə olar. Maraqlısı odur ki, 2020 – ci ilin noyabrında imzalanan Üçtərəfli Bəyanatda sərhədlərin dəyişdirilməsi öz əksini tapmır. Çünki Azərbaycan Qərbi Zəngəzura heç bir haqq iddia etmir. Halbuki Zəngəzur Azərbaycanım öz tarixi ərazisidir. Əlbəttə, bu yanaşmasında israrlı olan İranın tək dərdi "sərhədlərin dəyişilməsi" deyil, o həm də Ermənistana olan birbaşa çıxışını və kommunikasiyanı itirməklə yanaşı, Türkiyənin nüfuzunun regionda da artmasından və özünün Türk dövlətlərinə təsirinin azalmasından qorxur. Digər səbəb isə Cənubi Azərbaycanın müharibədən sonra artan milli kimlik hissinin, Azərbaycan və Türkiyə münasibətlərindən sonra daha da artacağından ehtiyat edib, İranın özü üçün ciddi bir təhdid yaradacağından narahatdır. Bundan əlavə, 44 günlük müharibəyə qədər Azərbaycanla Naxçıvan arasında yolun İrandan keçməsi Azərbaycanı bir növ İrandan asılı vəziyyətə salırdı. Artıq bu yolun Ermənistan ərazisindən keçməsi bu asılılığı azaltmaqla yanaşı, Zəngəzur dəhlizinin strateji dəyərini artıracaq və nəticədə, İran Şərq – Qərb nəqliyyatında mərkəzi rolunu itirəcək. Çünki Bakının "yerli antiterror tədbirləri" adlandırdığı nəticələr regionda əlavə konflikt dinamikasını, daha dəqiq ifadə etsək, Azərbaycan və Türkiyəni Azərbaycanın Ermənistan və İranla əhatə olunmuş Naxçıvan eksklavı vasitəsilə birləşdirəcək Zəngəzur dəhlizinin perspektivinin güclənməsi və bu reallaşdıqdan sonra Türkiyəyə Cənubi Qafqaz regionuna və Mərkəzi Asiyaya birbaşa qurudan çıxışına imkan verməsi, bununla belə İran Zəngəzur dəhlizinin Azərbaycan və Naxçıvan, Türkiyə və Mərkəzi Asiya, ümumilikdə Avrasiya İqtisadi İttifaqının üzvləri arasında tranzit marşurtu kimi kritik mövqeyini pozaraq onun geoiqtisadi əhəmiyyətinin və regional təsirinin sarsılacağından narahatdır.

2021-ci ildə İran Cənubi Qafqazda yeni əməkdaşlıq formatı olan "3+3" təşəbbüsünü dəstəklədi və bununla da inkişaf edən regional nizama inteqrasiya edərək qonşuluğunda baş verən hadisələrdən faydalanmağa çalışdı. Bu əməkdaşlıq formatı regionda təhlükəsizlik, iqtisadi və nəqliyyat məsələlərində birgə işləmək üçün Ermənistan, Azərbaycan və Gürcüstanla birlikdə Rusiya, Türkiyə və İranı bir araya gətirmək məqsədi daşıyırdı. Lakin Gürcüstan Rusiya ilə aralarında olan soyuqluq səbəbi ilə bu təşəbbüsə razılıq vermədi. Bu formatın yaradılmasında əsas məqsəd bölgədə sülh və təhlükəsizliyi dərinləşdirmək idi. Suriyada regional münaqişələrin idarə olunmasında əhəmiyyətli təcrübə qazanmış Astana

üçlüyü – Moskva, Ankara və Tehran, görünür, Cənubi Qafqazda da belə birgə koordinasiya üsullarını tətbiq etməyi hədəfləyib. Buna baxmayaraq, İranın gözləntiləri yerinə yetirilmədi, bu da onun mövqeyini daha da çətinləşdirdi və onu Türkiyənin yeni regional istəklərinə məruz qoydu. Nəticə etibarı ilə, İran Cənubi Qafqazda əzəli rəqibi olan Türkiyənin nüfuzunun güclənməsini böyük həyəcanla izləməkdədir.

Ümumiyyətlə, Qafqazda həll edilməmiş təhlükəsizlik problemləri İran və Türkiyənin milli təhlükəsizliyinə və regional təhlükəsizlik dinamikasına kəskin təsir göstərə bilər. Azərbaycan Respublikası Sovet İttifaqının süqutundan sonra Cənubi Qafqazda İran və Türkiyə arasında fikir ayrılığının mərkəzində dayanırdı [1, 50]. Silahlanma yarışı Cənubi Qafqazın regional və qlobal aktorları üçün digər mübahisəli faktordur və onların təhlükəsizlik hesablamalarına daxil olur. Rusiyanın daha sıx ikitərəfli müdafiə əlaqələri qurmaq təkliflərini rədd edən Azərbaycan Türkiyənin hərbi yardımını alan ölkə olub. Əgər Rusiya ilə Azərbaycan arasında müdafiə sahəsində əməkdaşlıq olsaydı, bu, strateji əməkdaşlıqdan daha çox taktiki olardı [5, 387].

Türkiyənin üç Cənubi Qafqaz dövləti ilə münasibətlərinin mürəkkəbliyi “sıfır problem siyasəti” ritorikasının həyata keçirilməsini çətinləşdirir. Reallıqda Türkiyə ilə Ermənistan arasında iqtisadi əlaqələr quru sərhədinin bağlanması və iki ölkə arasında diplomatik münasibətlərin olmaması, məsələn, Türkiyənin 1915-ci ildə Osmanlı ermənilərinin kütləvi şəkildə qətlə yetirilməsinin soyqırım olduğunu inkar etməsi və bəzi həll edilməmiş problemlər səbəbindən məhdudlaşır. Xüsusilə burada ilk növbədə, Qarabağ münaqişəsi ilə bağlı Türkiyənin Azərbaycana dəstəyini də qeyd etmək lazımdır [3].

Türkiyənin Ermənistanla münasibətlərindən fərqli olaraq, onun Azərbaycan və Gürcüstanla əlaqələri güclü və həyati əhəmiyyət kəsb edir. Bir sıra enerji və kommunikasiya layihələri bu ölkələri Türkiyə ilə bağlayır [6, 7]. Maraqlıdır ki, Türkiyə həm də Azərbaycan və Gürcüstana əsas silah tədarükçülərindən biridir və hər iki dövlətdə hərbi obyektlərə malikdir. Həm Azərbaycan, həm də Gürcüstan Türkiyəni Qərblə, xüsusən də NATO kimi Qərb beynəlxalq strukturları ilə əlaqələndirici hesab edirlər.

Bununla belə, tarix boyu Gürcüstan cəmiyyətində anti-türk stereotipi yetişdirilib. Hətta keçmişdə müsəlman Osmanlılar gürcü millətini xristian ruslardan daha çox təhdid edirdilər. Halbuki Türkiyə hazırda Gürcüstanın ən böyük ticarət tərəfdaşıdır. Bu yaxınlarda iki ölkə vətəndaşlarının sərhədi yalnız daxili şəxsiyyəti təsdiq edən sənədlərlə keçə biləcəyi vizasız saziş imzalayıb. Gürcüstanın yeni hökuməti sələfləri kimi qərbyönlü siyasətə sadiq qalıb. Türkiyə Gürcüstanı NATO-ya yaxınlaşdırmaq üçün əsas tərəfdaş ola bilər və Gürcüstanın ən dost qonşusu olaraq qalır [2].

Gürcüstan Cənubi Qafqaz ölkələri arasında İranla münasibətləri ən az inkişaf etmiş ölkədir. İran hətta Gürcüstanın ilk on ticarət tərəfdaşı siyahısında belə deyil [4]. İranın Gürcüstandakı əsas strateji marağı ABŞ və Türkiyənin ölkədəki təsirini məhdudlaşdırmaq, iqtisadi və ticarət əlaqələrini dərinləşdirmək və sabitliyi İranın təhlükəsizliyinə təsir etməyəcək şəkildə təmin etməkdir. Gürcüstan kommersiya və strateji imkanları İranla yaxşılaşmış münasibətlərdə görür.

Türkiyə və İranın Cənubi Qafqazda rəqabət zonalarını dörd başlıq altında təsnif etmək olar: ideoloji, iqtisadi, təhlükəsizlik sahələri və regionda birinci güc olma. Cənubi Qafqazda rəqabət meydanında Türkiyə və İran əsasən "yumşaq güc" rəqabətinə daxil olublar. Türkiyə və İran Cənubi Qafqaz siyasətlərini formalaşdırarkən mütləq Rusiya faktorunu nəzərə alırlar. Rusiya Cənubi Qafqazı öz təsir dairəsinin ənənəvi arxa bağçası kimi görür və Qərbin bu regionda artan müdaxiləsinə qarşıdır. ABŞ Xəzər dənizi regionunda Azərbaycanı ən mühüm müttəfiqi kimi seçdi və onunla hərbi əməkdaşlıq proqramına başlayıb. Azərbaycan isə həm Amerika, həm də Rusiya ilə balans siyasəti apararaq sabitliyə nail ola bilib.

İranın Cənubi Qafqazla bağlı əsas prioriteti İranın təhlükəsizliyini və hər şeydən əvvəl ərazi bütövlüyünü qorumaq olub. Təhlükəsizliyin bu fundamental əhəmiyyəti İranın Cənubi Qafqazda mülki və digər münaqişələrdə vasitəçilik səylərinin mənbəyi olmuşdur.

Sovet İttifaqının dağılmasından və Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra İranın Azərbaycan Respublikası ilə münasibətləri dəyişkən bir məcrada getdi. 1992-ci ilin iyununda millətçi təmayüllü Azərbaycan Xalq Cəbhəsinin lideri Əbülfəz Elçibəyin prezident seçilməsi, onun güclü qərbpərəst və amerikapərəst mövqe tutması, millətin türk xarakterini vurğulaması İran və Rusiyanı xeyli narahat etdi. Elçibəyin qərb yönümlü olmasının məqsədini Rusiya və İranın Cənubi Qafqazda təsirinin qarşısını almaq kimi qiymətləndirmək olar. Elçibəyin türklük üzərində tətbiq etməyə çalışdığı kimlik yanaşması Moskva və Tehran üçün bir xəbərdarlıq idi.

İranın baxış bucağından Türkiyə Cənubi Qafqaz ölkələri müstəqillik əldə etdikdən sonra üç məqsəd güdür:

1. Orta Asiyada türk xalqları ilə mədəni əlaqələri yenidən bərpa etmək və inkişaf etdirmək,

2. Azərbaycan başda olmaqla regionun türkdilli icmaları ilə yaxınlaşmaq, Azərbaycan və Gürcüstan vasitəsilə neft və qaz nəqli sahəsində sərfəli iqtisadi layihələrdə iştirak edərək iqtisadi əlaqələri genişləndirmək,

3. Qafqazın zəngin enerji resurslarına çıxış yolu ilə Türkiyəni enerji ilə təmin etmək.

İran isə Cənubi Qafqazda mədəni təsir baxımından istədiyi mühitə nail ola bilməyib. İran açıq şəkildə yuxarıda göstərilən türk hədəflərinin qarşısını almağa yönəlmiş siyasət yürüdür. Onun türklərin mədəni və iqtisadi inteqrasiyasının qarşısını almağa yönəlmiş layihələri dəstəkləməsi diqqət çəkir. O, həmçinin Cənubi Qafqaza nüfuz etmək üçün layihələr hazırlamağa çalışır. Lakin onun fikrincə, bu məqsədə çatmaqda daxili və xarici maneələrin mövcudluğu qırılma yaradır. Əslində İran İslam Respublikasının Qafqaz regionunda ümumi diplomatiyası hər şeydən çox bu ölkələr üçün İran-İslam modelini həyata keçirmək olub. İran hesab edir ki, Cənubi Qafqazın siyasətində, təhlükəsizliyində, iqtisadiyyatında və mədəniyyətində aydın şəkildə görünən odur ki, Ermənistan Rusiyadan dəstək gözləyir; Azərbaycan Türkiyəyə çox yaxındır və Gürcüstanın hədəfləri Qərb və Amerika üzərində qurulub.

İran 44 günlük müharibənin və ondan sonrakı dövrün nəticələrini təhdid olaraq yanlış qiymətləndirərək həddindən artıq reaksiya verməyə çalışır. Lakin indiki mərhələdə Azərbaycan və Türkiyənin regional əməkdaşlığını və region ölkələrinin ümumi maraqlarını prioritet hesab edən xarici siyasət xəttini düzgün qiymətləndirmək və bölgədəki yeni şəraitin yaratdığı imkanlara diqqət yetirmək İran üçün daha faydalı olardı. İstər ikitərəfli, istər üçtərəfli, istərsə də digər formatlarda əməkdaşlığın inkişaf etdirilməsi bütün tərəflərin xeyrinə olacaq və xarici güclərin bölgədə yaratmağa çalışdığı xaosun qarşısını almağa imkan verəcək.

Bununla belə, İran və Türkiyə regionda gələcək qarışıqlığın qarşısını almaqda ortaq maraqları bölüşürlər. Lakin bu məqsədə doğru birlikdə ən yaxşı şəkildə işləmək üçün hər iki ölkə iqtisadi əməkdaşlığa nail olmaq ehtiyacları ilə ziddiyyətli təhlükəsizlik siyasətləri arasındakı fərqi həll etməlidir.

## ƏDƏBİYYAT SİYAHISI


*1. Cornell, S. (1998). "Iran and the Caucasus," Middle East Policy 5, 4: 51-67.*

*2. De Waal, Thomas. 2012. "Worrying about the wrong neighbor." The National Interest, November 16th.*

*3. The Economist. 2011. "Caucasian questions: some progress is being made, but many obstacles to peace remain." June 23rd.*

*4. Ministry of Economy and Sustainable Development of Georgia. 2013. Georgian Foreign Trade. January 29th.*

*5. Oliker, O. and T. Szayna, eds. (2003). Faultlines of Conflict in Central Asia and the South Caucasus: Implications for the U.S. Army. Santa Monica; RAND.*

*6. Starr, S. Frederick & Svante E. Cornell. 2005. "The BakuTbilisi-Ceyhan pipeline: oil window to the West." Central Asia-Caucasus Institute and Silk Road Studies Programme.*

*7. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. (2021, 16 iyun). https://president.az/az/articles/view/52122*

*8. Həsənov, İ. (2024, 6 sentyabr). İran "Zəngəzur dəhlizi"ni özünün "qırmızı xətti" sayır. https://www.bbc.com/azeri/articles/c0qevvlze7eo*

*9. Turkiye – Iran Rivalry in the Changing Geopolitics of the South Causasus. (2023, 27 sentyabr). https://www.swp-berlin.org/10.18449/2023C49/*


## TÜRKİYƏ - İRAN MÜNASİBƏTLƏRİNDƏ CƏNUBİ QAFQAZ SİYASƏTİ

## XÜLASƏ


"Soyuq müharibə"dən sonrakı dövrdə Cənubi Qafqazda hakimiyyət boşluğu regional və qeyri-regional güclər arasında rəqabətin xarakterini formalaşdırıb. İran və Türkiyənin regionda xüsusi maraqları var və bu da birbaşa coğrafi yaxınlıq və tarixi keçmişdən qaynaqlanır. XX əsrdə üç yeni yaradılmış Azərbaycan, Ermənistan və Gürcüstan respublikaları İran və Türkiyə üçün yeni imkanlar yaratdı. Paralel olaraq isə həm də qonşuları üçün yeni təhlükə mənbəyi oldular. Ümumiyyətlə, İran və Türkiyə arasında rəqabət çoxşaxəlidir və özündə mədəni, iqtisadi və siyasi məsələləri əhatə edir. İran Cənubi Qafqazla münasibətlərində daha müstəqil mövqe nümayiş etdirir və eyni zamanda ABŞ-nin öz periferik regionunda gücünü və təsirini məhdudlaşdırmağa çalışır. Türkiyə isə Qərblə əməkdaşlıqda çoxtərəfli yanaşmaya üstünlük verdiyini nümayiş etdirməyə davam edir. Regionda möhkəmlənməyə çalışan hər

iki ölkə bu Cənubi Qafqaz dövlətləri ilə siyasi və iqtisadi əlaqələrini genişləndirməyə yönəlmiş xarici siyasət xətti müəyyən edir və həyata keçirir. Son illərdə Ermənistan – Azərbaycan münaqişəsi, Qarabağ məsələsi gündəmdə olduğu üçün isə rahatlıqla deyə bilərik ki, Türkiyə – İran münasibətlərində Azərbaycan faktoru mühüm rol oynayır. Məqalədə Türkiyə və İran arasında olan Cənubi Qafqaz rəqabətinin nədən ibarət olmasından və iki ölkənin xarici siyasətində Cənubi Qafqaza münasibətdə olan fərqlərə müəyyən qədər aydınlıq gətirilib.

**Açar sözlər:** *Türkiyə – İran münasibəti, Cənubi Qafqaz, Dağlıq Qarabağ, Azərbaycan, Zəngəzur dəhlizi.*

**Ali Aliyev**
***Azerbaijan National Academy of Sciences, Institute of Oriental Studies named after Academician Ziya Bunyadov***
***Doctoral student in International Relations***

## SOUTH CAUCASUS POLICY IN TURKIYE-IRAN RELATIONS

## SUMMARY

In the post-Cold War period, the power vacuum in the South Caucasus has shaped the nature of competition between regional and non-regional powers. Iran and Turkiye have special interests in the region, which arise directly from geographical proximity and historical background. In the 20th century, the three newly established republics of Azerbaijan, Armenia, and Georgia created new opportunities for Iran and Turkiye. At the same time, however, they also posed new sources of threat to their neighbors. Overall, the competition between Iran and Turkiye is multifaceted, encompassing cultural, economic, and political issues. Iran demonstrates a more independent position in its relations with the South Caucasus, while also trying to limit the power and influence of the United States in its peripheral region. Turkiye, on the other hand, continues to show a preference for a multilateral approach in cooperation with the West. As both countries seek to strengthen their presence in the region, they establish and implement foreign policy lines aimed at expanding their political and economic ties with these South Caucasian states. In recent years, given the ongoing Armenia-Azerbaijan conflict and the Nagorno-Karabakh issue, it can be comfortably stated that the Azerbaijani factor plays an important role in Turkiye-Iran relations. The article clarifies the nature of the competition between Turkiye and Iran in the South Caucasus and sheds light on the differences in their foreign policies regarding the region.

**Keywords:** *Turkiye-Iran relations, South Caucasus, Nagorno-Karabakh, Azerbaijan, Zangezur corridor*

**Али Алиев**
***Национальная Академия наук Азербайджана, Институт Востоковедения имени академика Зии Буньядова***
***докторант по международным отношениям.***

## "ТУРЦИЯ - ИРАН В ОТНОШЕНИЯХ ЮЖНОГО КАВКАЗА"

## РЕЗЮМЕ

В послевоенный период "Холодной войны" вакуум власти в Южном Кавказе сформировал характер конкуренции между региональными и нерегиональными силами. Иран и Турция имеют особые интересы в этом регионе, которые напрямую связаны с географической близостью и историческим прошлым. В XX веке три новосозданные республики — Азербайджан, Армения и Грузия — открыли новые возможности для Ирана и Турции, но одновременно стали источником новых угроз для соседей. В целом конкуренция между Ираном и Турцией многоаспектна и охватывает культурные, экономические и политические вопросы. Иран демонстрирует более независимую позицию в отношениях с Южным Кавказом и одновременно пытается ограничить влияние и силу США в своем периферийном регионе. Турция продолжает демонстрировать предпочтение многостороннему подходу в сотрудничестве с Западом. Обе страны, стремясь укрепиться в регионе, формируют и реализуют внешнюю политику, направленную на расширение политических и экономических связей с государствами Южного Кавказа. В последние годы, учитывая конфликт между Арменией и Азербайджаном, вопрос Нагорного Карабаха стал актуальным, и можно с уверенностью сказать, что фактор Азербайджана играет важную роль в отношениях Турции и Ирана. В статье приведены некоторые разъяснения о том, из чего состоит конкуренция между Турцией и Ираном в Южном Кавказе, а также о различиях в внешней политике двух стран по отношению к этому региону.

**Ключевые слова:** *Турция – Иран, Южный Кавказ, Нагорный Карабах, Азербайджан, Зангезурский коридор.*